UOT: 634/17.633/635.631.52

# QUBA-XAÇMAZ BÖLGƏSİNDƏ YAYILMIŞ ALÇA SORT VƏ FORMALARININ İQTİSADİ SƏMƏRƏLİLİYİ

**Ə.N.SADIQOV, M.N.BABAYEV**
**AKTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu**

*Məqalədə Quba-Xaçmaz bölgəsində ən çox yayılmış sort və formaların iqtisadi səmərəliliyi verilmişdir.*
***Açar sözlər**: alça, sort, iqtisadi səmərəlilik*

Azərbaycan meyvə bitkilərinin yaranma və formalaşma mərkəzlərindən biri olub, qədim meyvəçilik diyarıdır. Xalqımız qədimdən bəri meyvəçiliklə kor-koranə deyil, məqsədyönlü şəkildə məşğul olmuş və xalq seleksiyası yolu ilə aqromüxtəlifliyə yüzlərlə müxtəlif irsi xüsusiyyətlərə malik aborigen meyvə sortları bəxş etmiş, müxtəlif qida və sənaye məhsulları əldə etmək, xalq təsərrüfatının müxtəlif sahələrini inkişaf etdirmək məqsədilə meyvə bitkilərini geniş surətdə əkib becərmişdir. Hazırki dövrdə meyvəçilik Azərbaycan iqtisadiyyatında prioritet sahə hesab edilməklə 141,800 hektara çatdırılmışdır ki, bunun da təxminən 65 %-ni tumlular, 20 %-ni isə çəyirdəkli meyvə bitkiləri təşkil edir [1, 2, 3].

Respublikamızın torpaq fondu, su ehtiyatları və demoqrafik prosesi nəzərə alınmaqla kənd təsərrüfatı bitkilərinin seçilməsi, yeni səmərəli sortların yaradılması, bunların düzgün yerləşdirilməsi və torpaq-iqlim şəraitindən asılı olaraq dəyişkən texnologiya işlədilməklə ən əlverişli quruluşun hazırlanması əsas olmalıdır [4, 5, 6].

Artmaqda olan dünya əhalisini qida ilə təmin etməklə hələlik əsas mənbə kənd təsərrüfadır. Bu sahədə nailiyyətlərin əsasını ilk növbədə bitkiçilik üzrə aparılan tədqiqatlar təşkil edir. Ona görə də gələcək nailiyyətlər elmi tədqiqatların davamından və səmərəli tətbiqindən asılıdır.

Çəyirdəkli meyvə bitkiləri içərisində yayılma arealına görə alça bitkisi gilas bitkisindən sonra ikinci yeri tutmaqdadır.

Bu baxımdan alça bitkisinin gələcək illərdə kəndli (fermer) təsərrüfatları tərəfindən elmi əsaslar üzrə artırılması iqtisadi baxımdan səmərəli ola bilər.

**Tədqiqatın materialı**:

Quba-Xaçmaz bölgəsində alça bitkisinin ən çox yayılmış sort formalarıdır.

**Tədqiqatın metodikası:** Tədqiqatın yerinə yetirilməsində N.İ.Vavilov adına ÜBİ-nun əməkdaşları tərəfindən hazırlanan "Meyvə, giləmeyvə, subtropik, qərzəkli bitkilərinin və üzümün kolleksiya sortlarının öyrənilməsinə dair proqram və metodika"-dan [7] və Q.A.Lobanovun, A.S.Morozovun və b. Redaktəsi ilə hazırlanan "Meyvə, giləmeyvə və qərzəkli bitkilərinin proqram və metodikası"-ndan [8] istifadə edilmişdir.

**Tədqiqatın nəticəsi və müzakirəsi:**

Dünya miqyasında alça bitkisinin 254 növü yayılmışdır.

**Cədvəl 1**

**Dünya üzrə yayılmış alça növləri**

| Növün Azərbaycanca adı | Növün latınca adı |
|---|---|
| Amerika alçası | Prunus americana |
| Daryarpaq alça | Prunus angustifolia |
| Albalıyaoxşar alça | Prunus divaricata |
| Ev alçası | Prunus domestica |
| Kol alçası | Prunus fruticosa |
| Amerika bağ alçası | Prunus hortulana |
| Dəniz alçası | Prunus maritima |
| Yapon alçası | Prunus nume |
| Munson alçası | Prunus munsoniane |
| Kanada alçası | Prunus niqra |
| Çin alçası | Prunus salicina |
| Əriyəbənzər alça | Prunus simonii |
| Sahil alçası | Prunus subcordoto |
| Tüklü alçası | Prunus subhirclla |
| Ussuriya alçası | Prunus ussuriensis |
| Cır alça | Prunus insititia |
| Eniş alça | Prunus spinosa |
| Adi alça | Prunus cerasiferal |

Azərbaycanda isə xalq seleksiya yolu ilə artırılmış alça bitkisinin sort və formaları yayılmış və tərəfimizdən müəyyən edilmişdir. Bu sortlarm hal-hazırda respublikamızın meyvə bağlarında geniş yayılmış, bioloji xüsusiyyətləri tərəfimizdən öyrənilməkdədir. Aparılmış tədqiqatlar göstərmişdir ki, alça meyvələrinin tərkibində 11-14 % şəkər, 3-5 % turşu, 1,5 % pektin maddələri, $B_1$, $B_2$, E, PP kimi vitaminlər vardır. Toxumun tərkibində 42 %-ə qədər yağ vardır ki, bu da yağ keyfiyyəti baxımından badam toxumundan alınan yağın keyfiyyətinə bərabərdir.

Quba-Xaçmaz bölgəsində ən çox yayılmış alça bitkisinin sort və formaların iqtisadi səmərəliliyini təhlil edək.

İlkin mərhələdə alça bitkisinin sortlarının və tərəfimizdən aşkarlanmış keyfiyyət göstəriciləri

yüksək olan formaların əkilmə sxemləri üzrə məhsuldarlıq göstəricilərinə nəzər salaq (cədvəl 2).

**Cədvəl 2.**
**Alça bitkisinin sort və formalarının məhsuldarlığı**

| | Calaqaltı | Əkin sxemi (6x6; 6x5) | Meyvələrin yetişmə tarixi | Bir ağaca düşən məhsul, kq | Bir hektara düşən məhsuldarlıq | |
|---|---|---|---|---|---|---|
| | | | | | kq | sent |
| Rəcəbli (n) | Cır | 6 x 5 | 25-30 iyun | 75-80 | 24975 | 249 |
| Qəzvini | “-----” | 6 x 6 | 20-30 iyun | 90-100 | 24930 | 249 |
| Göycə sultanı | “-----” | 6 x 5 | 01-10 iyun | 70-80 | 24975 | 249 |
| Şabranı | “-----” | 6 x 6 | 20-30 iyun | 85-90 | 23545 | 235 |
| Payız mələsi | “-----” | 6 x 5 | 25-30 iyul | 70-75 | 23310 | 233 |
| Talabı | “-----” | 6 x 6 | 05-10 iyul | 70-80 | 20775 | 207 |
| X-Q-1 | “-----” | 6 x 6 | 20-30 iyun | 70-75 | 19390 | 193 |
| $Q_1$-Q-1 | “-----” | 6 x 6 | 05-10 iyul | 75-80 | 20775 | 207 |
| Q-T-1 | “-----” | 6 x 5 | 20-30 iyun | 70-80 | 24975 | 249 |
| X-F-1 | “-----” | 6 x 5 | 05-10 iyul | 75-80 | 24975 | 249 |
| $Q_1$-F-1 | “-----” | 6 x 5 | 20-30 iyun | 70-72 | 23310 | 233 |
| Q-Z-1 | “-----” | 6 x 6 | 15-20 iyul | 70-75 | 19390 | 193 |

Calaqaltısı cır olan 6 sort və 6 forma iki əkin sxemi üzrə, 6 x 6; 6 x 5 (bir hektar sahəyə 275-333 ədəd ağac olmaqla) məhsuldarlıq göstəricilərini təhlil edərkən görünür ki, formaların məhsuldarlığı sortlardan heç də geri qalmır. Rəcəbli (n) sortunda məhsuldarlıq bir hektardan 24975 kq, Qəzvini sortunda 24930 kq, Şabrani sortunda 23545 kq, Payız mələsində 23310 kq, Talıbıda 20775 kq; formalardan X-Q-1 (adlar uçot ünvanlarına görə şərti olaraq verilmişdir) 19390 kq, $Q_1$-Q-1 20775 kq, Q-T-1 24975 kq, X-F-1 24975 kq, $Q_1$-F-1 23310 kq, Q-Z-1 19390 kq olmuşdur (cədvəl 2).

Məhsulun becərilməsinə, yığılmasına və daşınmasına çəkilən xərc (1 hektar üçün) 1600-1650 man arasında dəyişmişdir. Bir hektar sahədən alınmış məhsulun dəyəri Rəcəbli (n) sortunda 5000 man, Qəzvini sortunda 6235 man Göycə sultanı sortunda 6243 man, Şabranıda 5862 man, Payız mələsində 7000 man, Talabıda 5143 man; formalardan X-Q-1-də 3878 man, $Q_1$-Q-1-də 4155 man, Q-T-1-də 6243 man, X-F-1-də 5000 man, $Q_1$-F-1-də 4662 man, Q-Z-1-də 3878 man olmuşdur.

Bir hektardan alınan xalis gəlir isə Rəcəbli (n) sortunda 3350 man, rentabellik 203 %; Qəzvinidə 4632 man, rentabellik 289,5 %; Göycə sultanıda 4593 man, rentabellik 278,3 %, Şabranıda 4286 man, rentabellik 267,8 %, Payız mələsində 5350 man, rentabellik 324,2 %, Talabıda 3593 man, rentabellik 221,4 %; formalardan X-Q-1-də 2278 man, rentabellik 142,3 %, $Q_1$-Q-1-də 2555 man, rentabellik 159,6 %; Q-T-1-də 4593 man, rentabellik 278,3 %; X-F-1-də 3350 man, rentabellik 203,0 %, $Q_1$-F-1-də 3012 man, rentabellik 182,5 %; Q-Z-1-də 2278 man, rentabellik 142,3 % olmuşdur (cədvəl 3).

Bir sentner məhsulun maya dəyəri 20-30 man arasında olmuşdur.

Qeyd etmək lazımdır ki, 1 sen məhsulun maya dəyəri illər ərzində bazar iqtisadiyyatının tələblərindən asılı olaraq dəyişə bilər.

Sortlardan Qəzvini, Göyçə sultanı, Şabranı, Payız mələsi Rəcəbli (N) sortuna görə fərqlənmişlər.

Alça bitkisinin sort və formaların iqtisadi səmərəliliyinə nəzər saldıqda görünür ki, sortlardan Payız mələsi, formalardan isə Q-T-1 iqtisadi səmərəliliyinə görə digər sort və formalardan fərqlənmişlər.

**Cədvəl 3.**
**Alça bitkisinin sort və formalarının iqtisadi səmərəliliyi**

| Sort və forma | Məhsuldarlıq (sen/ha) | Bir hektara çəkilən xərc, man | Bir ha sahədən alınan məhsulun dəyəri, man | Bir hektardan alınan xalis gəlir, man | Bir sen məhsulun maya dəyəri, man | Rentabellik, % | Sortların iqtisadi səmərəliliyinin nəzarət sortuna görə müqayisəli xarakteristikası |
|---|---|---|---|---|---|---|---|
| Rəcəbli (N) | 249 | 1650 | 5000 | 3350 | 21,2 | 203,0 | 100 |
| Qəzvini | 249 | 1600 | 6235 | 4632 | 25,0 | 278,3 | 136 |
| Göycə sultanı | 249 | 1650 | 6243 | 4593 | 25,0 | 289,5 | 142 |
| Şabranı | 235 | 1600 | 5862 | 4286 | 25,0 | 267,8 | 131 |
| Payız mələsi | 233 | 1650 | 7000 | 5350 | 30,0 | 324,2 | 159 |
| Talabı | 207 | 1600 | 5193 | 3593 | 25,0 | 221,4 | 108 |
| X-Q-1 | 190 | 1600 | 3878 | 2278 | 20,0 | 142,3 | 69 |
| $Q_1$-Q-1 | 207 | 1600 | 4155 | 2555 | 20,0 | 159,6 | 78 |
| Q-T-1 | 266 | 1650 | 6243 | 4593 | 25,0 | 278,3 | 136 |
| X-F-1 | 249 | 1650 | 5000 | 3350 | 20,0 | 203,0 | 100 |
| $Q_1$-F-1 | 233 | 1650 | 4662 | 3012 | 20,0 | 182,5 | 89 |
| Q-Z-1 | 193 | 1650 | 3878 | 2278 | 21,0 | 142,3 | 68 |

## Nəticə

1. Quba-Xaçmaz bölgəsində ən çox yayılmış sortların iqtisadi səmərəliliyi təhlil edilmişdir. Təhlildə nəzarət sortu kimi Rəcəbli sortu götürülmüşdür.
2. Sortlarla yanaşı keyfiyyət göstəriciləri yüksək olan formaların da iqtisadi səmərəliliyi təhlil olunmuşdur. Təhlildə hektardan alınan məhsuldarlıq, çəkilən xərclər, 1 sen məhsulun maya dəyəri, xalis gəlir, rentabellik göstərilmişdir.
3. Sortların iqtisadi səmərəliliyin nəzarət sortuna görə müqayisəli xarakteristikası verilmişdir.
4. Ən yüksək rentabelliyə Payız mələsi sortu (324,2 %) və Q-T-1 forması (278,3 %) malik olmuşlar.

## ƏDƏBİYYAT

1.Həsənov Z.M., Əliyev C. Meyvəçilik, Bakı, 2011. - 519 s. 2.Əliyev C. Meyvəçilik, 1974. - 251 s. 3.Qurbanov İ.S., V.M.Əliyev, B.G.Babayev. Meyvəçilik. “Müəllim” nəşr., Bakı, 2009. - 233 s. 4.Maksimova M.P. "Azərbaycan üçün çəyirdəkli meyvələrin standart sortları", Bakı, 1966. - s. 39. 5.Sadıqov Ə.N. "Seleksiya prosesində genefondun istifadəsinin bəzi aspektləri", "Aqrar elmin zənginləşdiriləræk təkmilləşdirilməsi əsasında ərzaq təhlükəsizliyinin təmini problemləri" elmi-praktik konfransın materialları, 14-16 may. Bakı, "Müəllim" nəşr., 2011. - s. 16. 6. Rəcəbli Ə.C. “Azərbaycanın meyvə bitkiləri”, Bakı, 1966. - 246 s. 7.Витковский В.Л., Павлова Н.М. Программа и методика изучения сортов коллекции плодовых, ягодных, субтропических, орехоплодных культур и винограда. ВИР им. Н.И.Вавилова, Ленинград, 1970. - 164 с. 8.Программа и методика сортоизучения плодовых, ягодных и орехоплодных культур / Ред. Кол.: Г.А. Лобанов, Т. В. Морозов, А.С. Овсянников и др. – Мичуринск, 1973. - 496 с.

### Экономическая эффективность сортов и форм алычи распростроненных в Губа-Хачмазском регионе

**А.Н. Садыгов, М.Н. Бабаев**

В статье дается информация об экономической эффективности более распространенных в Губа-Хачмазском регионе форм и сортов фундука.

***Ключевые слова:*** алыча, сорт, экономическая эффективность.

### Economıc effıcıency of varıetıes and forms of anımals dıstrıbuted ın the Huba-Khachmaz regıon

**A.N. Sadygov, M.N. Babayev**

The article gives information on the economic efficiency of forms and varieties of hazelnut that are more common in the Guba-Khachmaz region.

***Key words***: cherry plum, variety, economic efficiency.

# "Мать моря" Кэтлин Дрю-Бейкер




*Именно так называют в Японии британку Кэтлин Дрю-Бейкер, благодаря которой посевы нори, основного компонента для создания суши, стали стабильными и продуктивными. Она никогда не была в Японии, но в ее честь в 1963 году был открыт памятник в храме Сумиеши, а 14 апреля в стране ежегодно празднуется ее открытие.*

*Кэтлин Дрю-Бейкер в основном изучала красные водоросли и большинство из ее 47 научных работ посвящены именно этой теме. В 1949 году британка опубликовала исследование, в котором доказано, что в репродукции водорослей нори одно из ключевых мест занимают раковины моллюсков. В естественной среде взрослые особи водорослей выделяют весной мужские и женские клетки. Эти клетки объединяются, чтобы произвести споры, которые затем поселяются на устричных раковинах, где и растут все летние месяцы. В это время важно поддерживать определенную температуру воды и интенсивность освещения раковин.*

*В 1953 году Фусао Ота и другие японские биологи разработали новую методику посева нори на основе исследования Дрю-Бейкер, благодаря которой урожайность водорослей выросла в несколько раз.*